# QADINLAR SƏMANI FƏTH EDİR

***Qəhrəmanlıq, böyük cəsarət, fədakarlıq və mərdlik tələb edən bir xüsusiyyətdir və bu xüsusiyyətlər yalnız ən çətin anlarda, insanın ən böyük çətinliklərlə qarşılaşdığı zaman ortaya çıxır. Belə anlarda insanlar öz qorxularını arxada qoyur və başqalarının həyatını qorumaq üçün canlarını fəda edirlər. Nəticədə, onlar tarixə əbədi qəhrəman olaraq düşürlər. Hər peşənin öz çətinlikləri var və bu çətinliklərin öhdəsindən gələn qəhrəmanlar da mövcuddur. Belə peşələrdən biri də aviasiya sahəsidir. Bir çox ölkələrdə olduğu kimi, həm Azərbaycanda, həm də qardaş ölkə Türkiyədə bu sahənin zəngin tarixi vardır.***



Aviasiyanın tarixi qədim dövrlərə gedib çıxsa da, Azərbaycanda bu sahənin inkişafı XX əsrin əvvəllərinə təsadüf edir. İlk təyyarə uçuşları 1910-cu ildə Bakıda həyata keçirilsə də, o dövrdə yerli hakimiyyət orqanları Aviasiya Zabitlər Məktəbinin vaxtında fəaliyyətə başlaması ilə bu sahənin inkişafına zəmin yaratmışdır. Aviasiya tarixinə düşən ilk azərbaycanlı aviatorların fəaliyyəti 1910-1920-ci illərə təsadüf edir. Bu dövrdə Ə.S.Verdiyev (ilk azərbaycanlı mühəndis-pilot), F.A.Qayıbov (ilk azərbaycanlı hərbi təyyarəçi, İlya Muromets №16 adlı bombardmançı təyyarənin heyət üzvü, Birinci Dünya müharibəsi iştirakçısı və poruçik), F.M.Qacar kimi igid qəhrəmanlarımız aviasiya sahəsində ad qazanmışdılar. Yalnız kişilər deyil, qadın təyyarəçilərimiz də aviasiya tarixində adlarını qızıl hərflərlə yazdırmışdır. Ziba Dadaşova, Sona Nuriyeva kimi bir çox qadınlar da bu sahədə uğurlar əldə edərək, aviasiya tarixindəki yerini möhkəmləndirmişlər.

Onlardan biri də Azərbaycan qadınlarının tarixi qəhrəmanlıq salnaməsində xüsusi yeri olan Leyla Məmmədbəyovadır. O, ölkəmizin və Qafqazın ilk qadın pilotu və paraşütçüsü olaraq tarixə düşüb. Leyla Məmmədbəyovanın həyatı və fəaliyyəti yalnız qadınların cəmiyyətdəki rolunun dəyişməsinə səbəb olmaqla yanaşı, həm də gələcək nəsillər üçün böyük bir ilham mənbəyi olmuşdur. Onun göstərdiyi cəsarət və fədakarlıq, qadınların hər sahədə yüksək nailiyyətlər əldə edə biləcəyini sübut etmişdir.

Leyla Məmmədbəyova 17 sentyabr 1909-cu ildə Bakıda anadan olub. İlk təhsilini Bakıda alan Leyla xanımın həyatında 1918-ci ilin faciəli hadisələri — Mart soyqırımı dərin iz qoyub. Həmin dövrdə ailəsi ilə birlikdə Həştərxana köçmüş Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra yenidən Bakıya qayıdır. 1922-ci ildə, on dörd yaşı tamam olmamış, əslən Kürdəxanıdan olan on doqquz yaşlı Bəhram Məmmədbəyovla ailə qurdu. Böyük oğlu Firudin İkinci Dünya Müharibəsində, kiçik oğlu Xanlar isə Qarabağ döyüşlərində iştirak edib.

Leyla Məmmədbəyova əmək fəaliyyətinə 1930-cu ildən başlayıb və aviasiya sahəsində peşəkar təhsil almaq üçün Bakı aeroklubuna yazılıb. Bir ildən sonra ilk uçuşunu reallaşdıran Leyla, qısa müddətdə bacarığı və cəsarəti ilə fərqlənib aviasiya biliklərini daha da artırmaq məqsədilə Moskva şəhərinə yollanıb. Burada o, 1933-cü il martın 17-də Tuşino aerodromunda U-2 təyyarəsindən paraşütlə tullanaraq Sovet İttifaqının ikinci qadın paraşütçüsü olub. 1934-cü ildə Cənubi Qafqaz respublikaları arasında keçirilən paraşütçülər yarışında birinci yerə layiq görülən Leyla Məmmədbəyova, 1941-ci ilə qədər artıq aviasiya mayoru rütbəsinə yüksəlib. Peşəsini sevdiyi üçün o, Bakı aeroklubunda müəllim kimi fəaliyyətini davam etdirib və yüzlərlə gənc aviasiya həvəskarı yetişdirib.

Böyük Vətən Müharibəsi zamanı qadın olmasına və ailəsində yetkinlik yaşına çatmamış dörd övladının olmasına görə cəbhəyə göndərilməsə də, o, müharibəyə dolayısı ilə qatılıb. Leyla Məmmədbəyova minlərlə desantçı və paraşütçü hazırlayaraq cəbhəyə yola salıb. Onların arasında iki nəfər — Adil Quliyev və Nikolay Şeverdyayev — Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Leyla Məmmədbəyova 1949-cu ildə son uçuşunu edərək peşəkar pilot karyerasını başa vurub. Sonralar OADKYC-nin Bakı filialında sədr müavini kimi çalışıb və 1961-ci ildə təqaüdə çıxıb. O, 1989-cu ilin iyulunda vəfat edib və Bakı şəhərindəki II Fəxri Xiyabanda dəfn olunub.

Leyla Məmmədbəyovanın qəhrəmanlığı və fəaliyyəti Azərbaycan mədəniyyətində də öz əksini tapıb. Belə ki, Mikayıl Müşfiqin «Əfşan» və «Şölə» poemaları və xalq şairi Səməd Vurğun 1935-ci ildə yazdığı «Leyla» şeiri ilə bu cəsur qadının obrazını ədəbiyyatda əbədiləşdirib. 1934-cü ildə lentə alınan səssiz «İsmət» bədii filmi və 1995-ci ildə çəkilən «Leyla» adlı sənədli film də Leyla Məmmədbəyovanın həyat və fəaliyyətinə həsr olunub.

Qazaxıstanda istehsal olunan «Leyla» pilotsuz uçuş aparatı (PUA) da onun şərəfinə adlandırılıb. Bu gün Bakının Bakıxanov qəsəbəsində bir küçə də Leyla Məmmədbəyovanın adını daşıyır. Leyla Məmmədbəyovanın xidmətləri dövlət səviyyəsində də yüksək qiymətləndirilmişdir. Aviasiyadakı xidmətləri və ictimai fəaliyyətinə görə Leyla Məmmədbəyova 1936-cı ildə «Şərəf nişanı» ordeni, 1945-ci ildə «Qafqazın müdafiəsinə görə», 1946-cı ildə isə «Əməkdə fərqlənməyə görə», «Əmək rəşadətinə görə» və «Əmək veteranı» medalları ilə təltif olunmuşdur. Ən diqqətçəkən məqamlardan biri isə altı uşaq anası olan Leyla Məmmədbəyovanın mükafatları arasında «Analıq medalı»nın da yer almasıdır. 2017-ci ildə Amerikanın nüfuzlu «Huffington Post» nəşrində Leyla Məmmədbəyova haqqında məqalə dərc olunmuşdur. Məqalədə onun fəaliyyəti belə qiymətləndirilir: «O, öz həyatı ilə Azərbaycanda — qadınların ABŞ-dan daha əvvəl səs vermək hüququna malik olduğu bir ölkədə tipik müsəlman qadını stereotipini qırdı».

Leyla Məmmədbəyova təkcə Azərbaycanın deyil, bütün Qafqazın və regionun qadın aviasiya tarixində ilk adlardan biri olub, cəsarəti, iradəsi və vətənə bağlılığı ilə Azərbaycan qadınının simvoluna çevrilmiş, irsi isə bu gün də gənc nəsillərə örnək olaraq qadınların hər sahədə uğur qazana biləcəyini sübut edir.

Dünyanın bir çox ölkəsində olduğu kimi, Türkiyədə də aviasiya sahəsində ilk uğurlar Osmanlı dövrünə təsadüf edir. Osmanlı İmperiyası aviasiya tarixində mühüm addımlar atan ilk müsəlman dövlətlərdən biri sayılır. Aviasiyanın inkişafı Osmanlıda Hərbi Naziri Mahmut Şevket Paşanın təşəbbüsü ilə başlamışdır. 1911-ci ildə onun rəhbərliyi altında Osmanlı Ordusunda ilk rəsmi aviasiya birliyi yaradılmışdır.

O dövrdən etibarən Türkiyədə aviasiyanın inkişafı üçün ardıcıl addımlar atılmağa başlandı. Aviasiya sahəsində bilik və bacarıq əldə etmək məqsədilə Leytenant Yusuf Kenan və Kapitan Mehmet Fesa Evrensev pilot təhsili almaq üçün Fransaya göndərildi. Bununla yanaşı, ölkədə aviasiyanın inkişafını dəstəkləmək üçün Türk Təyyarə Cəmiyyəti yaradıldı.



Bütün bu səylər nəticəsində, həm Çanaqqala döyüşlərində, həm də Birinci Dünya Müharibəsində türk aviatorları öz peşəkarlıqlarını və məharətlərini nümayiş etdirdilər. Yeni qurulan Türkiyə Cümhuriyyətinin rəhbəri Mustafa Kamal Atatürk də gənclərin aviasiyanın sirlərini öyrənməsini arzulayırdı. Beləliklə, 1935-ci ilin 3 may tarixində Ankarada Türkkuşu Uçuş Məktəbi yaradıldı. Bu məktəbdə təhsil alan kişilərlə yanaşı, qadınlar da öz məharətlərini göstərirdilər. İlk təhsil alan qadın pilotlardan biri də türk aviasiyasının ən parlaq simalarından biri olan Sabiha Gökçen olub. O, həm Türkiyənin, həm də dünyanın ilk qadın hərbi pilotu olaraq tarixə düşmüşdür. Sabiha Gökçen, 1913-cü il martın 22-də Bursada dünyaya gəlmişdir. Valideynlərini erkən yaşlarında itirən Sabiha, böyük qardaşı Neşet tərəfindən böyüdülmüşdür. 1925-ci ildə, cəmi 12 yaşında ikən, Atatürkə rast gəlmiş və ona oxumaq istədiyini bildirmişdir. Atatürk onu himayəsinə götürərək Ankaraya aparmış və təhsil almasına şərait yaratmışdır. Çankaya İlkokulu, Arnavutköy Amerikan Qız Kolleci və Üsküdar Amerikan Liseyində təhsil alan Sabiha, sağlamlıq problemləri səbəbi-



lə təhsilini tamamlaya bilməsə də, Fransız dilini inki?af etdirmək məqsədilə Parisdə yaşamışdır.

1934-cü ildə qəbul edilən Soyad Qanunundan sonra Atatürk ona «Gökçen» soyadını vermişdir. Bir ildən sonra Türk Hava Qurumu tədbirində planör uçuşlarını izləyən Sabiha, aviasiyaya böyük maraq göstərmiş və Atatürkün dəstəyi ilə Türkkuşu Mülki Havacılıq Məktəbinə daxil olmuşdur. Təhsilini Eskişehir aviasiya məktəbində davam etdirən Sabiha, 1936-cı ilin fevralında ilk motorlu uçuşunu həyata keçirmişdir. Atatürkün ona dediyi sözlər, bu anın tarixi əhəmiyyətini vurğulamaq üçün əhəmiyyətlidir: «Ola bilər ki, sən dünyada ilk qadın hərbi pilot olacaqsan. Bir türk qızının dünyada ilk olması nə böyük qürurdur!»

Sabiha Gökçen 1937-ci ildə Dersim Hərəkatı zamanı hava hücumlarında iştirak edərək qəhrəmanlıq göstərmiş və Türk Hava Qurumu Fəxri Medalı ilə təltif olunmuşdur. Həmin il Hatayın Türkiyəyə qatılması məsələsində də cəsur addımları ilə yadda qalmışdır. 1938-ci ildə Balkan Turuna çıxmış və Yunanıstan, Bolqarıstan, Yuqoslaviya və Rumıniyada təkbaşına uçuşlar həyata keçirmişdir. Yuqoslaviya ordusu tərəfindən «Ağ Qartal» ordeni ilə təltif edilmişdir.

Atatürkün vəfatından sonra qanunvericilikdə qadın hərbi pilotların fəaliyyətinə icazə verilmədiyi üçün Sabiha Gökçen, Türkkuşu Uçuş Məktəbinə baş müəllim təyin edilmiş və bu vəzifəni 1955-ci ilə qədər icra etmişdir. Sabiha Gökçen ABŞ-a səfəri zamanı 1953 və 1959-cu illərdə, Türk qadınını dünyaya tanıtmışdır. Son uçuşunu isə 1996-cı ildə 83 yaşında Falcon 2000 təyyarəsi ilə etmişdir.

1996-cı ildə ABŞ-ın Maxwell Hava Bazasının «Kartallar Toplantısı»nda «Dünya tarixində iz qoyan 20 pilot»dan biri seçilmiş və bu mükafatı alan ilk və yeganə qadın olmuşdur. Çalışdığı dövrdə bir çox təltif və medallara layiq görülmüşdür.

Sabiha Gökçen, 22 mart 2001-ci ildə Gülhane Hərbi Tibb Akademiyasında ürək çatışmazlığından vəfat etmişdir. O, Mustafa Kamal Atatürkün səkkiz mənəvi övladından biri olmuş və həyatını Türk aviasiyasına həsr etmişdir. Onun adı bu gün İstanbulun ikinci hava limanı olan Sabiha Gökçen Hava Limanında yaşayır.

Sabiha Gökçen təkcə bir qadın pilot deyil, həm də Türk qadınının azadlığının, cəsarətinin və qabaqcıl düşüncəsinin simvolu olmuşdur. Onun həyat yolu, minlərlə gənc qız üçün ilham mənbəyidir.

***Günay RZAYEVA,***
**«Basqal» Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru. Araşdırmaçı, yazar.**



**Şəkillərdə:** *Leyla Məmmədbəyova; Leyla Məmmədbəyova təyyarə sürərkən; Sabiha Gökçen; Sabiha Gökçen təyyarə sürərkən.*